**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

Əlyazması hüququnda

**SABIR ƏHMƏD OĞLU ƏKBƏR**

# "İRAN İSLAM RESPUBLIKASINDA QEYRI-NEFT SƏNAYE SAHƏLƏRININ INKIŞAFI PROBLEMLƏRI"

**İxtisas:** 5312.01– Sahə iqtisadiyyatı
5310.01 – Dünya iqtisadiyyatı

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbərlər**: **i.e.d. F.Ə.Qənbərov**
**i.f.d., dos. A.M.Əsədov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
AMEA-nın müxbir üzvü
**Əli Xudu oğlu Nuriyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Kamran Hidayət oğlu İsayev**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrası

Dissertasiya işinin müdafiəsi 30 iyun 2017-ci il saat $14^{00}$ -da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181. Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan**: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, II mərtəbə, AMEA-nın İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 25 may 2017-ci ildə göndərilmişdir

**D.01.181. Dissertasiya Şurasının Elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru** **S.T.Şıxəliyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Müşahidələr göstərir ki, neftlə zəngin əksər ölkələrdə qeyri-neft sektorunun inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bu da təbiidir, ona görə ki, neft dünyanın marağında olan bir sərvətdir və əksər hallarda, neft sənayesi milli iqtisadiyyatların inkişaf səviyyəsindən, ayrı-ayrı dövlətlərin mövqeyindən asılı olmayaraq, dünyanın aparıcı transmilli korporasiyalarının dəstəyi ilə tərəqqi edir. Bu baxımdan da, neft sektorundan əldə edilən vəsaitlərin qeyri-neft sektorunun inkişafına istiqamətləndirilməsi olduqca mühüm əhəmiyyətə malikdir. Ona görə də məqsədyönlü formada neft siyasətini reallaşdırmaqla, bu sahədən daxil olan vəsaitlərin planlaşdırılmış şəkildə qeyri-neft sahələrinin inkişafına yönəldilməsi qarşıda duran başlıca vəzifələrdən biri kimi qəbul edilir. O cümlədən, İran İslam Respublikasında da qeyri-neft sektorunun inkişafı istiqamətində çoxsaylı və genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. Nəticə etibarı ilə, qeyri-neft sektorunda ciddi nailiyyətlər əldə olunsa da, bu heç də mövcud potensial imkanlara uyğun deyildir və potensial imkanlardan tam istifadə edilməmişdir.

Aydındır ki, İranda gön-dəri, dağ-mədən, tikinti, turizm, maşınqayırma və s. kimi qeyri-neft sənaye sahələri fəaliyyət göstərir və yalnız bütün bu sahələrin tarazlı inkişafı halında güclü milli iqtisadiyyat formalaşdırmaq mümkündür. Bu baxımdan da, qeyd edilən sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində müvafiq araşdırmaların aparılması, ayrı-ayrı konkret sahələr üzrə perspektiv imkanların aşkara çıxarılması və imkanların səmərəli şəkildə reallaşdırılmasına xidmət edən elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Bazar münasibətlərinin inkişaf etdiyi ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, dövlətin iqtisadi proseslərə müdaxiləsi azalır, tənzimləyici funksiyalar daha da sadələşir və aparıcı mövqe özəl təsərrüfat subyektlərinə keçir. Bu halda isə, artıq hər bir sahənin inkişafı müvafiq normativ-hüquqi baza ilə yanaşı, həm də bu bazanın təsiri ilə formalaşan biznes və investisiya mühitindən asılıdır. Təbii ki, bu mühit nə qədər əlverişli olarsa, nə qədər çox investisiya cəlb edilərsə və bu investisiyalardan düzgün istifadə olunarsa, bu halda proqnozlaşdırılan inkişaf səviyyəsini təmin etmək mümkündür. Əks halda heç bir sahənin, o cümlədən qeyri-neft sənaye sahələrinin davamlı və uzunmüddətli rentabelli fəaliyyətini təmin etmək qeyri-mümkündür. Nəzərə alsaq ki, biznes və investisiya mühiti də, özlüyündə digər bir çox amillərdən asılıdır, onda bu istiqamətdə kompleks araşdırmalar aparılmasının zəruriliyi aydın olar.

Qeyd olunduğu kimi, İran İslam Respublikası aqrar-sənayenin, turizm və tikinti sənayesinin, toxuculuq və xalçaçılıq sənayesinin, o cümlədən balıq və balıq məhsulları sənayesinin daha da inkişaf etdirilməsi üçün zəngin resurs ehtiyatlarına malikdir. Bu ehtiyatların tam və səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb edilməsi və ölkənin qeyri-neft sənaye sahələrinin tarazlı inkişafının təmin olunması çox vacibdir və bu həm də, həyata keçirilən inkişaf proqramlarından irəli gələn bir zərurətdir. Bütün bunlar, həm də dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri olan regional inkişaf məqsədlərinin gerçəkləşməsinə kömək edər. Ona görə də, qeyri-neft sənaye sahələrinin inkişafı istiqamətində tədqiqatların aparılması, qeyri-neft sənaye sektorunda konkret sahələr üzrə potensial imkanların müəyyən edilməsi və bu imkanlardan məqsədəuyğun istifadənin təmin edilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması çox vacibdir. Qeyd edilənlər seçilmiş tədqiqat mövzusunun mühüm problemləri əhatə etdiyini və xüsusi aktuallığa malik olduğunu göstərir.

**Problemin öyrənilməsi səviyyəsi:** Qeyri-neft sənaye sahələrinin inkişafı, bu sahələrə aid ayrı-ayrı regionlarda mövcud potensialdan tam və səmərəli istifadə, qeyri-neft sənaye sahələrinin inkişafı üçün əlverişli biznes və investisiya mühitinin formalaşdırılması istiqamətində kompleks elmi tədqiqat işlərinə geniş yer verilməmişdir. Bununla yanaşı, istər Azərbaycan Respublikasında, istərsə də İran İslam Respublikasında bir çox alimlərin əsərlərində əlaqədar məsələlərin tədqiqinə rast gəlmək mümkündür. Xüsusən, iranlı alimlərdən A.Örən, S.Vəhid, T.Salçıyan, M.Səlimfər, M.Mohsenvendi, H.Əbrişəmi A.Vəziri və s., azərbaycanlı alimlərdən A.A.Nadirov, A.K.Ələsgərov, Ş.Ə.Səmədzadə, İ.H.Alıyev, T.N.Əliyev, R.P.Sultanova, T.H.Hüseynov, F.Ə.Qənbərov, İ.A.Kərimov, A.Ş.Şəkərəliyev və digərləri öz əsərlərində qeyri-neft sənaye sahələrinin inkişafı, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, qeyri-neft sektorunun proporsional inkişafı, bu sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi və s. kimi məsələlərin tədqiqinə geniş yer vermişlər.

İranda istər ümumi iqtisadi inkişaf, istərsə də regional inkişaf baxımından qeyri-neft sənaye sektorunun inkişaf etdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Müxtəlif regionlarda, o cümlədən ümumilikdə ölkə ərazisində qeyri-neft sənaye sektorunun potensial imkanlarının müəyyən edilməsi, inkişaf perspektivlərinin öyrənilməsi və üzə çıxarılması, bu potensialdan tam və səmərəli istifadə edilməsi hər bir milli iqtisadiyyatın proporsional inkişafının başlıca amilidir. Qeyri-neft sənaye sahələrinin perspektiv inkişafı üçün ölkə ərazisində zəngin yeraltı və yerüstü sətvətlər, geniş potensial imkanlar olduğunu nəzərə alsaq, İranda qeyri-neft sənaye sektorunun inkişafı, bu sahədə mövcud potensialdan səmərəli istifadə kimi məsələlərin xüsusi aktuallıq kəsb etdiyi

aydın olar. Bütün bunlar seçilmiş tədqiqat mövzusunun aktuallığını əsaslandırır.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqat işinin əsas məqsədi İranda qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi, ayrı-ayrı sənaye sahələri üzrə mövcud potensial imkanlardan səmərəli istifadənin təmin olunması, bu sahədə əlverişli biznes və investisiya mühitinin formalaşdırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcıl olaraq yerinə yetirilmişdir:

- qeyri-neft sənaye sahələrinin sosial-iqtisadi mahiyyəti və məzmunun aydınlaşdırılması;
- qeyri-neft sənaye sahələrinin inkişafına dair müxtəlif nəzəri yanaşmaların təhlili və ümumiləşdirilməsi;
- Qeyri-neft sənaye sektorunun inkişafına dair beynəlxalq təcrübənin təhlili və ümumiləşdirilməsi;
- İran İslam Respublikasında qeyri-neft sənaye sektorunun inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi;
- İranın qeyri-neft sənaye sahələrinin inkişafında müxtəlif dövlət proqramlarının rolunun müəyyənləşdirilməsi;
- İranda əlverişli biznes və investisiya mühitinin formalaşdırılması istiqamətlərinin müəyyən edilməsi;
- Qeyri-neft sənaye sahələrinin inkişafının modelləşdirilməsi;
- İran İslam Respublikasında qeyri-neft sənaye sahələrinin inkişafına dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması;

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqat obyekti olaraq İran İslam Respublikasının qeyri-neft sənaye sektoru seçilmişdir. Tədqiqatın predmetini isə, İranda qeyri-neft sənaye sahələri arasındakı iqtisadi münasibətlər sistemi, bu münasibətlərin tənzimlənməsi və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları:** Tədqiqatın nəzəri-metodoloji əsasını İran və Azərbaycan alimlərinin fundamental tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə, dialektikanın prinsipləri, anlayışları, kateqoriyaları, qanunları onların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri təşkil edir. Tədqiqat zamanı sistem yanaşma, induksiya, deduksiya və mühakimə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** qeyr-neft sənaye sahələrinin fəaliyyətinin təşkili və idarə edilməsi, bu sahələrdə fasiləsiz istehsal fəaliyyətinin təmin edilməsi, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması ilə əlaqədar qanunlar, proqramlar və digər normativ-hüquqi sənədlər, eləcə də İran İs-

lam Respublikasının illik statistik məlumatları və müəllifin şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- müxtəlif qeyri-neft sənaye sahələri (toxuculuq, turizm, gön-dəri, aqrar-sənaye və s.) üzrə mövcud potensial imkanlar müəyyən edilmiş və bu imkanlardan səmərəli istifadə yolları təklif edilmişdir;
- Regional inkişafa, mövcud ehtiyatlardan səmərəli istifadəyə, neftdən asılılığın azaldılmasına, milli iqtisadiyyatın tarazlı inkişafına və s. müsbət təsirləri əsasında qeyri-neft sənaye sahələrinin İran iqtisadiyyatında rolu müəyyənləşdirilmişdir;
- Qeyri-neft sənaye sahələrinin inkişafının biznes və investisiya mühitindən asılılığı aydınlaşdırılmışdır;
- Elmi-texniki tərəqqinin istehsalata tətbiqinin genişləndirilməsi, elmi müəssisələr və həmkarlar təşkilatları ilə sənaye sahələri arasında qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi yolları təklif edilmişdir;
- Qeyri-neft sənaye sahələrində biznes və investisiya fəaliyyətinin daha da genişləndirilməsi və yaxşılaşdırılması məqsədilə infrastruktur təminatının təkmilləşdirilməsi yolları müəyyən edilmişdir;
- Qeyri-neft sənaye sahələrinin daha sürətli inkişafının təmin olunması məqsədilə azad iqtisadi və sərbəst ticarət zonalarının yaradılması imkanları müəyyən olunmuşdur;
- İran iqtisadiyyatının neftdən asılılığı riyazi modellə ifadə edilmiş və bu asılılığın azaldılması yolları əsaslandırılmışdır;
- İranda qeyri-neft sənaye sahələrinin inkişaf modeli təklif edilmişdir;
- Iran İslam Respublikasında qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilmiş nəticələr, eləcə də irəli sürülmüş təklif və tövsiyələr qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi, iqtisadiyyatın neftdən asılılığının azaldılması, qeyri-neft sənaye sahələrində istehsalın müasir tələbata uyğunlaşdırılması istiqamətində istifadə edilə bilər.

Dissertasiya işinin ayrı-ayrı bölmələrinin nəticə və təklifləri Universitetlərdə müvafiq tədris proqramlarının hazırlanmasında, eləcə də uyğun proqram, təlimat və digər normativ sənədlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrin təhlili:** Tədqiqat işinin əsas müddəaları, irəli sürülmüş təklif və tövsiyələr müxtəlif elmi təşkilatlarda keçirilən elmi-praktiki konfranslarda, o cümlədən "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin for-

malaşması problemləri", "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri", "Milli iqtisadiyyatın modernləşməsi: mövcud vəziyyət və gələcək perspektivlər" adlı konfranslarda məruzə edilmiş, bəyənilmiş və çap edilmişdir.

**Dərc edilmiş məqalələr:** Dissertasiya işinin əsas müddəalarını əks etdirən 8 elmi məqalə və tezis müxtəlif yerli və xarici elmi jurnallarda, eləcə də konfrans materiallarında çap edilmişdir.

**İşin quruluşu və həcmi:** Dissertasiya işi giriş, üç fəsil, 8 paraqraf, nəticə və təkliflər, eləcə də istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 160 səhifədir. İşdə 16 diaqram və 21 cədvəl verilmişdir.

## Dissertasiya işinin mündəricatı


**GİRİŞ**

**I Fəsil: Qeyri-neft sənaye sahələrinin inkişafının sosial-iqtisadi mahiyyəti və nəzəri əsasları**

**1.1.** Qeyri-neft sənaye sahələrinin sosial-iqtisadi mahiyyəti və məzmunu

**1.2.** Qeyri-neft sənaye sahələrinin inkişafının nəzəri əsasları

**1.3.** Qeyri-neft sənaye sahələrinin inkişafına dair beynəlxalq təcrübə

**II Fəsil: Iran Islam Respublikasında qeyri-neft sənaye sahələrinin müasir inkişaf səviyyəsinin təhlili və qiymətləndirilməsi**

**2.1.** Iran İslam Respublikasının iqtisadi inkişafında qeyri-neft sənaye sahələrinin rolu

**2.2.** Iran Islam Respublikasında qeyri-neft sənaye sahələrinin inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi

**2.3.** Dövlət proqramlarının Iran Islam Respublikasında qeyri-neft sənaye sahələrinin inkişafına təsir istiqamətləri

**III Fəsil: Iran Islam Respublikasında qeyri-neft sənaye sahələrinin inkişaf istiqamətləri**

**3.1.** Iranda biznes və investisiya mühitinin təkmilləşdirilməsi yolları

**3.2.** Qeyri-neft sənaye sahələrinin inkişafının modelləşdirilməsi

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyatlar**

**Əlavələr**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Qeyri-neft sənaye sahələrinin sosial-iqtisadi mahiyyəti və məzmunu izah edilmiş, bu istiqamətdə iqtisadi inkişafın təmin edilməsinin nəzəri məsələləri araşdırılmış və İran İslam Respublikasında qeyri-neft sənaye sahələrinin təsnifatı verilmişdir.**

Hər bir ölkənin iqtisadi inkişafı müəyyən sahələrdən və amillərdən asılıdır. Eyni zamanda, iqtisadiyyatın elə sahələri vardır ki, onlar milli iqtisadi tərəqqidə daha aparıcı rola malikdir. Belə sahələrə, əsas etibarı ilə, sənayenin müxtəlif istiqamətləri aiddir. Nəzərə alsaq ki, İranda qeyri-neft sektorunun inkişafı gündəmdə olan bir məsələ kimi xüsusi aktuallıq kəsb edir, onda müvafiq istiqamətlərdə araşdırmaların aparılması əhəmiyyəti də aydın olar. Qeyri-neft sənaye sahələrinə maşınqayırma, metallurgiya, dağ-mədən, toxuculuq, gön-dəri və s. kimi müxtəlif istiqamətlər aiddir. Tədqiqat zamanı, qeyri-neft sənaye sektoruna aid olan dağ-mədən, kimya, emal, toxuculuq, maşınqayırma və s. sahələrin mahiyyəti izah edilmiş, eləcə də konkret istiqamətlər üzrə dünya sənayesinin inkişaf dinamikası nəzərdən keçirilmiş və araşdırılmışdır.

Müasir dünyanın zəngin yeraltı və yerüstü sərvətlərə malik dövlətlərdən biri olan İran İslam Respublikasında sənayenin inkişafı qədim tarixə malik olsa da, əsas kimya sənayesi kompleksi müəssisələrinin istifadəyə verilməsi 1940-50-ci illərdən başlayır. Bu müəssisələrdə müxtəlif toxuculuq məhsulları, ayaqqabı, sintetik kauçuk, avtomobil şinləri, plastik kütlə, süni lif, mineral gübrələr, xlor, yod, sintetik yuyucu vasitələr, dərmanlar və s. istehsal edilir.

Aydındır ki, son on il ərzində İran İslam Respublikasının (İİR) sosial-iqtisadi sahələrdə inkişafı açıq-aşkar hiss edilməkdədir. Xüsusilə, özəl sahələrin inkişafına şərait yaradılması, müəssisələrə müstəqillik verilməsi, həyata keçirilən özəlləşdirmə prosesləri və s. İİR-in makroiqtisadi göstəricilərində nəzərəçarpacaq yüksəlişlərə nail olunmasına imkan vermişdir. Eyni zamanda, bir çox iqtisadi göstəricilərin artımı müşahidə edilsə də, bu heç də mövcud potensialdan tam və səmərəli istifadə demək deyildir. Bu da ondan irəli gəlir ki, İİR zəngin təbii sərvətlərə və potensiala malik bir dövlətdir. Belə olduğu halda isə, mövcud potensialdan tam və səmərəli istifadəni təmin edərək gələcəkdə uzunmüddətli və daha sürətli inkişaf yollarının araşdırılması labud və zəruridir.

Tanınmış iqtisadçılardan V. Leontyev, S. Kuznetç, C. Qelbreyt və s. öz tədqiqatlarında sənayenin inkişafı, düzgün strukturlaşdırılması, yerli resurs ehtiyatlarından səmərəli və qənaətlə istifadə və s. kimi məsələlərə çox geniş yer vermişlər. Rus əsilli amerikan iqtisadçısı V.Leontyev öz tədqiqatlarında iqtisadi sistemlərin fəaliyyəti nəzə-

riyyələrini iqtisadi modelləşdirmə üsulları ilə birləşdirərək iqtisadiyyatın sahələrarası balansını işləyib hazırlamışdır ki, bu da sahə strukturunun nisbətini, iqtisadi əlaqələri əks etdirən göstəricilər sistemini və iqtisadi sahələr arasında mövcud olan qarşılıqlı əlaqələri və iqtisadi vəziyyəti öyrənməyə imkan verir. İqtisadi nəzəriyyə struktur dəyişikliyinin struktur effekti adlanan müsbət nəticələrinin meyarlarını işləyib hazırlamışdır. Bu göstərici struktur dəyişiklikləri indeksi ilə iqtisadi inkişafın əsas göstəriciləri arasındakı əlaqəni əks etdirir.

Tədqiqat üçün burada neoklassik qiymət anlayışından və ehtiyatların bölgüsü mexanizmindən, müasir iqtisadi üsullardan istifadə edilir. Nobel mükafatı laureatı Artur Lyuisin işləyib hazırladığı izafi əmək ehtiyatlarına malik olan iqtisadiyyatların iki sektorlu inkişaf modeli struktur nəzəriyyələrinin ən geniş yayılmış cərəyanlarındandır. Bu, əsas etibarı ilə natural istehlakçı iqtisadiyyatlarda struktur dəyişikliklərinin nəzəri əsaslarının təhlilinə yönəldilmişdir. Bu nəzəriyyədə geri qalmış ənənəvi kənd təsərrüfatı ilə inkişaf etmiş müasir iqtisadiyyat sahələri arasında qarşılıqlı əlaqələrin nəzəri əsasları verilmişdir ki, bu da ümumi inkişaf baxımından çox vacibdir.

Həmin nəzəriyyə əsasında sonralar yaranmış digər nəzəriyyə inkişaf formalarının təhlili modeli adlanır. Bu nəzəriyyə də diqqəti ənənəvi geridə qalmış kənd təsərrüfatının yeni sənaye sahələrinə çevrilməsini təmin edən iqtisadi industrial və təsisat strukturlarında zəruri olan ardıcıl dəyişikliklərə yönəldir. Lakin Lyuis modelindən fərqli olaraq mərhələli artım nəzəriyyəsində yığım və investisiyanın artımı zəruri hesab edilsə də, iqtisadi artım üçün onun kifayət etmədiyi xüsusi vurğulanır. Qeyd edilir ki, ənənəvi iqtisadiyyatdan müasir iqtisadi sistemə keçmək üçün fiziki və insan kapitalının yığımı ilə yanaşı ölkə iqtisadiyyatında qarşılıqlı əlaqədar olan dəyişikliklər seriyası tələb olunur. Bu dəyişikliklər isə bütün sahələri - istehsalı, istehlak tələbini, xarici ticarəti, ehtiyatların bölgüsünü, urbanizasiya, əhali artımı və məşğulluğun strukturu kimi sosial-iqtisadi amilləri əhatə edir.

Araşdırmalardan aydın olur ki, İran ərazisinin 20%-ni əkin sahələri və ya əkinə yararlı torpaqlar təşkil edir. Bu sahələrdə buğda, arpa, düyü, paxlalılar, pambıq, şəkər çuğunduru, şəkər qamışı, tütün, çay və s. becərilir. 2002-ci ilin məlumatlarına görə bütün bu sahələrdə, əmәkqabiliyyətli insanların 1/4 hissəsi və ya 25.9%-i çalışır. Ona görə də müxtəlif məhsulların emalını həyata keçirən ayrı-ayrı emal müəssisələri kompleksindən ibarət olan aqrar-sənayeni qeyri-neft sənaye sektorunun mühüm istiqaməti kimi qəbul edə bilərik. Bu baxımdan, kənd təsərrüfatı və sənaye sahələrinin qarşılıqlı inkişafına nail olmaq çox vacibdir. Eyni zamanda, qarşılıqlı inkişaf yalnız aqrar-sənaye müəssisələrinin sayının artırılması, mövcud olan sənaye müəssisələrinin təkmilləşdirilməsi və beləliklə də kənd təsərrüfatı məhsullarını emal etməklə bu sahənin inkişafına təkan verilməsindən ibarət ola bilməz. Belə ki, qeyd edilənlər əsasən hazır məhsullar əldə edildikdən sonarkı mərhələdə başlayır və

daha çox satışla əlaqədardır. Amma nəzərə alsaq ki, ayrı-ayrı kənd təsərrüfatı sahələrində məhsul becərilməsi zamanı da gübrə çatışmazlığı ilə bağlı müəyyən problemlər meydana çıxır, onda sənayenin məhsul istehsalı (becərilməsi) prosesində də yaxından iştirakı zərurəti yaranır. Belə ki, qeyri-neft sektoruna aid olan ayrı-ayrı kimya sənayesi müəssisələrinin lazımi gübrələrin istehsalını daha da çoxaltması, eləcə də kənd təsərrüfatı məhsulları istehsalçılarının bu gübrələri əldə edə bilməsi prosesinin sadələşdirilməsi olduqca vacibdir.

Qeyd olunduğu kimi, İranda inkişaf etməkdə olan qeyri-neft sənaye sahələrindən biri də, müxtəlif təyinatlı sənaye müəssisələrini özündə birləşdirən yüngül sənayedir. İranda yüngül sənayenin inkişafı qədim dövrlərə təsadüf edir. Məsələn xalçaçılığın tarixi XII əsrin sonu-XIII əsrin əvvəllərinə gedib çıxır ki, bu dövrdə də, ildə orta hesabla 300 ton xam ipək, 22 min ton pambıq mahlıcı, 4 mln. ton yun istehsal edilirdi. Ümumiyyətlə yüngül sənaye müəssisələri əksər ostanları əhatə edirdi. Müəssisələrin sayının artması ilə yanaşı, eyni zamanda fəaliyyət göstərən müəssisələrin yenidən qurulması və genişləndirilməsi üzrə işlər də aparılırdı ki, bu da 1960-ci ildən sonra daha da sürətlənmişdir.

**2. İran İslam Respublikasında qeyri-neft sənaye sahələri təsnifləşdirilmiş, ayrı-ayrı sahələrin fəaliyyəti təhlil edilmiş, rəqabət qabiliyyətliliyi araşdırılmış və başlıca inkişaf istiqamətləri aydınlaşdırılmışdır**

Aydındır ki, təyinatından və istehsal istiqamətindən asılı olmayaraq bütün sənaye sahələri olduqca mühüm sosial-iqtisadi əhəmiyyətə malikdir. Ona görə ki, ayrı-ayrı qeyri-neft sənaye sahələrində istehsal edilən məhsullar insanların normal yaşayışının əsasını təşkil edir. Bütün bunlar isə, o halda realdır ki, istehsal edilən məhsullar rəqabət qabiliyyətli və tələbata uyğun olsun. Əks halda məhsulun da, onu istehsal edən müəssisələrin də mahiyyəti kiçilir.

Buraxilan yüngül sənaye məhsullarının keyfiyyəti istehlak tələblərinə cavab verməməsi, parçaların bədii tərtibatı, paltarların və ayyaqabların modelləşdirilməsi və istehsalı muasir tələblərə uyğun gəlmədikdə, təbii ki, heç bir rəqabət qabiliyyətindən danışmaq mümkün deyildir. Aydındır ki, məhsulun keyfiyyətinə müxtəlif amillər təsir edir ki, bunlardan biri də texnoji avadanlığın səviyyəsinin aşağı olmasıdır. Əksər müəssisələrdə olan texnolji avadanlıq mənəvi və fiziki cəhətdən xeyli köhnəlmiş və xarici nümunələrdən olduqca geri qalır. Bu baxımdan da, sənaye sahələrinin inkişafını sürətləndirmək, sosial mahiyyətini daha da yüksəltmək məqsədilə, zəruri məsələlərdən biri də istismar edilən avadanlıq və texnologiyaların moderinləşdirilməsidir. Toxuculuq müəssisələrinin modernləşdirilməsi ilə yanaşı, toxuculuq

maşınqayırması sahələrinin də inkişaf etdirilməsi çox vacibdir. Müşahidələr də göstərir ki, yüngül sənayenin əksər çətinliyi ölkədə toxuculuq maşınqayırma müəsisələrinin olmaması ilə baglıdır. Ona görə də məhsulun keyfiyətini onu formalaşdıran təkmil istehsal - texniki bazasını yaratmaqla, yeni müasir mütərrəqi texnologiyaların tətbiqi ilə etmək olar. Bu həm sahənin sosial-iqtisadi mahiyyətini artırar, həm də cəmiyyətin tələbatının daha dolğun və keyfiyyətlə ödənilməsində mühüm rol oynayar.

İranda qeyri-neft sənaye sahələrinin aparıcı istiqamətlərindən biri də turizm sənayesidir. Qloballaşma proseslərinin sürətlənməsi ilə xarakterizə olunan XXI əsr, həm də inteqrativ əlaqələrin inkişafı baxımından dünyada əhali hərəkətliliyinin artımını zəruri edir. Belə bir şəraitdə isə, təbii ki, xidmət sahələrinin inkişaf tempi istehsal sferasını üstələyir. Başqa sözlə desək, insanların bir ölkədən digər ölkəyə tez-tez və daha çox sayda səfərlər etməsi müvafiq xidmətlərin də hərəkət marşrutuna uyğun inkişafını təmin edir. Əhali hərəkətliliyindən asılı olaraq inkişaf edən xidmət sahələrindən biri də ümumdünya təsərrüfat fəaliyyətinin əsas istiqamətlərindən olan turizmdir. Beynəlxalq aləmdə turizm, həm də ölkələr arasında iqtisadi əməkdaşlığı formalaşdıran bir sahə kimi çıxış edir. Eyni zamanda, turistlərə xidmətlə bağlı bütün istiqamətləri özündə əks etdirən turizm sənayesi, mühüm iqtisadi amil kimi dünyada sürətlə inkişaf edən xidmət sahələrindən biridir.

**3. İran İslam Respublikasının iqtisadi inkişafında qeyri-neft sənaye sahələrinin rolu aydınlaşdırılmış, qeyri-neft sənaye sahələrinin inkişaf dinamikası təhlil edilmiş və ölkədə həyata keçirilən dövlət proqramlarının qeyri-neft sənaye sahələrinin inkişafına təsir istiqamətləri aydınlaşdırılmışdır.**

Aydındır ki, ayrı-ayrı Ostanlarda fəaliyyət göstərən İran sənaye müəssisələrinin fəaliyyəti müvafiq lisenziyalarla tənzimlənir. Statistik məlumatlar göstərir ki, cəmi sənaye müəssisələrinin 5,6%-i İsfahanın, 3,5%-i Tehranın, 5,9%-i Xorasan-Rizavinin, 4,6%-i Mazandaranın, 11,2%-i Şərqi Azərbaycanın, 7,7%-i Markazinin və 6,8%-i isə Yəzdin payına düşür. Eyni zamanda, sənaye məhsulları istehsalına nəzər saldıqda, bu sahədə də aparıcı mövqenin qeyd edilən vilayətlərə aid olduğu aydınlaşır. Bununla belə, bütün regionlar üzrə bu və ya digər sayda müəssisə yaradılmışdır.

**Cədvəl 1.**

**İran İslam Respublikasında Ostanlar üzrə lisenziya verilmiş sənaye müəssisələrinin sayı, ədəd**

| | Ostanlar | Cəmi sənaye müəssisələri | 2013-2014-cu illərdə istifadəyə verilmiş və ya bünövrəsi qoyulmuş sənaye müəssisələri |
|---|---|---|---|
| | Cəmi | 19235 | 2782 |
| 1 | Şərqi Azərbaycan | 2170 | 259 |
| 2 | Qərbi Azərbaycan | 469 | 72 |
| 3 | Ərdəbil | 192 | 69 |
| 4 | İsfahan | 1090 | 205 |
| 5 | Əlboz | 416 | 88 |
| 6 | İlam | 124 | 19 |
| 7 | Buşehr | 264 | 15 |
| 8 | Tehran | 677 | 175 |
| 9 | Çaharmahal-Bəxtiyari | 294 | 49 |
| 10 | Şimali Xorasan | 137 | 33 |
| 11 | Xorasan-Rizavi | 1143 | 177 |
| 12 | Cənubi Xorasan | 122 | 20 |
| 13 | Kuzistan | 454 | 82 |
| 14 | Zəncan | 720 | 51 |
| 15 | Səmnan | 709 | 81 |
| 16 | Sistan-Baluçestan | 356 | 36 |
| 17 | Fars | 1894 | 150 |
| 18 | Qəzvin | 723 | 136 |
| 19 | Qum | 452 | 135 |
| 20 | Kürdistan | 496 | 61 |
| 21 | Kerman | 563 | 89 |
| 22 | Kermanşah | 308 | 43 |
| 23 | Kohgiluey-Boyarəhməd | 126 | 18 |
| 24 | Gülistan | 315 | 48 |
| 25 | Gilan | 393 | 95 |
| 26 | Lorestan | 344 | 53 |
| 27 | Mazandaran | 885 | 123 |
| 28 | Markazi | 1488 | 151 |
| 29 | Ərəs Sərbəst Bölgəsi | 14 | 1 |
| 30 | Ərvənd Sərbəst Bölgəsi | 0 | 1 |
| 31 | Ənzəli Sərbəst Bölgəsi | 4 | 6 |
| 32 | Geşm Sərbəst Bölgəsi | 12 | 9 |
| 33 | Kiş Sərbəst Bölgəsi | 0 | 1 |
| 34 | Maku Sərbəst Bölgəsi | 3 | 3 |
| 35 | Hormozgan | 202 | 32 |
| 36 | Həmədan | 365 | 65 |
| 37 | Yəzd | 1311 | 131 |

**Mənbə: "İran Statistical yearbook", 2013 –cu il (1392), səh.309.**

Məlum olduğu kimi, yeni müəssisələrin yaranmasına müəyyən amillər təsir edir. Belə ki, müəssisənin hansı vilayətdə yaradılmasına yerli potensial, iş qüvvəsi, həmin məhsula olan tələbat və s. kimi amillər təsir edir. Məhz bu amillərin təsiri altında yaradılan yeni müəssisələrin sayında ilk yerləri Şərqi Azərbaycan (11,3%), Fars (9,8%), Markazi (7,7%), Yəzd (6,8%), Xorasan-Rizavi (5,9%), İsfahan (5,7%), Mazandaran (4,9%) vilayətləri bölüşür.

Təbii ki, istənilən müəssisənin səmərəliliyinə təsir edən mühüm amillərdən biri də işçilərin sayı və ixtisas səviyyəsidir. Yəni istənilən texniki-texnoloji səviyyəyə malik müəssisə lazımi kadrlarla təmin edilmədikdə, onun fəaliyyətinin səmərəliliyi aşağı olacaqdır. Ona görə də, sənayenin də mühüm səmərəlilik göstəricilərindən biri, yəni onun inkişafına təsir edən mühüm amillərindən biri də işçilərin sayı və ixtisas səviyyəsidir. İşçilərin sayı baxımından müəssisələri qruplaşdırarkən, ilk yerləri ərzaq məhsulları və işki sənayesi, toxuculuq sənayesi, rezin və plastik məmulatlar sənayesi, qeyri-metal mineral ehtiyatlar sənayesi, fabrikat metal məhsulları sənayesi və s. tutur. Konkret rəqəmlərə müraciət etsək, aydın olur ki, 2013-cu ilin məlumatlarına görə, cəmi 10 nəfərdən 49 nəfərə müəssisələrin 24,69%-i qeyri-metal mineral ehtiyatlar, 18,7%-i ərzaq və içki sənayesinin, 7,6%-i fabrikant metallar, 7,1%-i rezin və plastik məmulatlar, 6,6%-i toxuculuq sənayesinin payına düşür. Eyni zamanda, 100 və daha çox işçilərin çalışdığı sənaye müəssisələrinə ərzaq, toxuculuq, kimya və kimyəvi məhsullar, qeyri-metal mineral ehtiyatlar, elektrik maşın və avadanlıqları sənayesi sahələrində daha çox rast gəlinir.

Statistik araşdırmalar göstərir ki, ümumi sənaye müəssisələrinin 2,8%-i mebel sənayesinin, 3,2%-i elektrik maşın və avadanlıqları sənayesinin, 4,4%-i əsas metallar sənayesinin, 6,8%-i rezin və plastik məhsullar sənayesinin, 18,5%-i ərzaq məhsulları və içki sənayesinin, 21,5%-i qeyri-metal mineral ehtiyatları sənayesinin, 7,2%-i toxuculuq sənayesinin, 14%- i isə digər sənaye sahələrinin payına düşür. Ümumi sənaye müəssisələrinin 14,9%-də işçilərin sayı 50 nəfərdən 99 nəfərədəkdir, 70%-də 10 nəfərdən 49 nəfərədəkdir, 15,1%-də isə 100 nəfər və daha çox işçi çalışır.

İranda qeyri-neft sənaye sektoruna investisiya qoyuluşlarına dair statistik məlumatlara nəzərə saldıqda aydın olur ki, 2014-cü il ərzində qeyri-neft sənaye sektoruna 93072,3milyard rial investisiya qoyulmuşdur ki, bunun da 27,3%-i kimya və kimyəvi məhsullar, 10,3%-i ərzaq məhsulları və içki, 12,3%-i qeyri-metal mineral ehtiyatları sənayesi, 19,5%-i əsas metallar sənayesi, 3,17%-i toxuculuq sənayesi, 3,8%-i rezin və plastik məmulatlar, 1,8%-i fabrikat metal məhsulları (maşın və avadanlıqlardan başqa), 10,7%-i koks, rafinə edilmiş yanacaq məhsulları və nüvə yanacağı, 1,8%-i elektrik maşın və aparatları, 0,83%-i tibbi avadanlıqlar və müşahidə aparatları, 0,83%-i

kağız və kağız məhsulları, 0,84%-i ağac və ağac məhsulları, 0,11%-i ayaqqabı sənayesi, 0,1%-i geyim, boyaqçılıq və xəz, 0,02%-i tütün məmulatları sənayesinin, 9,85%-i isə digər sənaye müəssisələrinin payına düşür.

Ümumilikdə həyata keçirilən proqramlar iqtisadi sferada ciddi dəyişikliklərə yol açmışdır. Nəticədə, 1997-2005-ci illərdə bu istiqamətdə artım müşahidə edilmişdir. Ümumi investisiyalarda özəl sektorun payı 55.84%-dən 2005-ci ildə 70.24%-ə çatmışdır. Bütün bunları aşağıdakı diaqramdan da görmək mümkündür.

**Diaqram1**

**Kapital qoyuluşlarında özəl sektorun payının artım dinamikası**




**Mənbə: "İran Statistical yearbook", 2013 –cu il (1392), səh.414-417.**

Təbii ki, kapital qoyuluşlarında baş verən dəyişikliklər, həm də ümumdaxili məhsulun (ÜDM) strukturuna təsir göstərir, yəni artıq ÜDM-in formalaşmasında parıcı mövqe özəl sektora doğru dəyişir. İnvestisiya qoyuluşlarının ölkənin ümumdaxili məhsuluna olan nisbəti 31.68% olmuşdur. 1-ci inkişaf proqramında orta hesabla ildə 384 min yeni iş yerləri fürsəti yarandı ki, proqramın məqsədinin 97%-nin yerinə yetirildiyini göstərir. Bu proqramda işsizliyin miqdarının azaldılması məqsədinə müvəffəq olmuşdur, belə ki, proqramın sonunda işsizlik faizi 11.5%-ə endi.

2-ci inkişaf proqramın gedişində yeni iş yerlərin açılması və işsizliyin səviyyəsinə görə proqramın məqsədləri uyğun gəlməmişdir. Belə ki, 2-ci inkişaf proqramın məqsədlərinə əsasən işsizlik səviyyəsi 12.6%-ə qədər azalmalıdır, halbuki, əməldə bu göstərici 13.1%-i göstərirdi. Həmçinin 2-ci inkişaf proqramı illərində 263 min yeni iş yerləri əmələ gəlmişdir ki, əslində proqramın məqsədlərinə əsasən 404 min yeni iş yerləri icad edilməli idi. Pul və inflyasiya sahəsində də proqramın məqsədləri təmin edilmədi, belə ki, 2-ci inkişaf proqram illərində nağd pul kütləsinin artımı orta hesabla 25.5% idi, halbuki,

proqramın məqsədlərinə əsasən bu artım 12.5% proqnozlaşdırılmışdır. Həmçinin, 2-ci inkişaf proqram illərində orta hesabla inflyasiya tempi təxminən 25.6% olmuşdur ki, bu səviyyə proqramın məqsədlərində proqnozlaşdırılandan 13.2%-dən daha çox olmuşdur.

3-cü inkişaf proqramı boyu hasil olan nəticələrə görə orta illik iqtisadi artım 6.1% və investisiyaların artımı 10.7% olmuşdur ki, bu da proqramın məqsədlərindən daha yüksək olmuşdur. Eyni zamanda, 3-cü inkişaf proqramında orta hesabla illik inflyasiyanın artımı 15.9% nəzərdə tutulur ki, burada inflyasiyanın 14.1% olmasını nəzərə alaraq proqramın bu göstərici üzrə də öz məqsədlərinə nail olduğunu söyləmək olar. 3-cü inkişaf proqramı bir sıra məqsədlərində uğursuz olmuşdur, bunlara misal özəlləşdirmə prosesinin tempinin aşağı olması, ölkədə enerji və istehsalat sektoruna dövlətin böyük subsidiya ödəmələrinin davamı, qara bazar, qeyri-rəsmi bazar və inhisarçılığın ləğvində uğursuzluğa işarə etmək olar.

1971-2007-ci illər arasında emal sənaye sektoru orta hesabla ölkənin iqtisadi fəaliyyətlərinin ümumi həcminin 11.3%-ni təşkil etmişdir. Bu sektorun payı kənd təsərrüfat ilə müqayisədə 12.6%, xidmət sektoruna nisbətən isə 53.1% az rütbədədir.

**4. İranda biznes və investisiya mühitinin inkişafına mane olan amillər aydınlaşdırılmış və bu mühitin təkmilləşdirilməsi yolları təklif edilmişdir.**

Araşdırmalar göstərir ki, investisiya mühiti üç geniş dəyişkən kəmiyyətlə qiymətləndirilə bilər ki, buraya da, makroiqtisadi vəziyyəti şərtləndirən vergi, pul və ticarət siyasətləri, idarəetmənin keyfiyyəti və institutların mövcudluğu, infrastrukturun inkişaf səviyyəsi daxildir. Təbii ki, investisiya mühiti sadəcə biznes sahələri üzərinə qoyulan vergi dərəcələrindən və vergi güzəştlərindən deyil, həm də ona ciddi təsir edən siyasi sabitlik, qanunun aliliyi, makroiqtisadi şərait, hökumətə inam və tənzimləyici mühit kimi zəruri amillərdən də asılıdır. Bütün bunlarla yanaşı, biznes mühitinin təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, texnoparkların, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi yolu ilə ayrı-ayrı sahələrdə sahibkarlığın inkişafı daha da sürətləndirilə bilər ki, bu da müasir dövrün əsas tələblərindən biridir. İnvestisiyaların əlverişli şərtlərlə cəlb edilməsi, investisiya cəlbediciliyinin yüksəldilməsi və maliyyə vəsaitlərindən daha səmərəli istifadəyə nail olunması məqsədilə bir sıra tədbirlərin görülməsi zəruridir:

- investisiyaların ölkənin əmək resurslarının bol olduğu regionlara yönəldilməsi;

- ixrac potensialının genişləndirilməsi üçün tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi.

- idarəetmə sisteminin islahı və qeyri-zəruri təşkilatların ləğvi (paralel təşkilat və nazirliklərin birləşdirilməsi)

- dövlətin icra işlərində rolunu azaltmaq və yalnız yönəldici istiqamətdə rolunun gücləndirilməsi;

- islahat proqramlarının gedişində dövlətin tam iqtidarla iştirakı;

- valyuta qiymətlərinin tarazlaşdırılması və milli pulun mübadiləsinin asanlaşdırılması;

- bazar iqtisadiyyatı sisteminin inkişafının sürətləndirilməsi;

- investisiyalara aid qanunların islah edilməsi, mürəkkəb mərhələlər və bürokratik əngəllərin ləğvi

- iş bazarında lazım olan hərəkəti yaratmaq məqsədi ilə əmək məcəlləsi və vergilərdə islahatların aparılması və investisiyaların təşviq edilməsi;

- tədqiqat, inkişaf işləri və texnologiyaların köçürülməsi məsələlərində investisiyaların cəlb olunması;

- dövlət mülkiyyətində olan şirkətlərin özəlləşdirilməsi və səhmlərin satışı yolu ilə özəl təsərrüfat subyektlərinin inkişaf etdirilməsi;

- bankların satılması və bank olmayan özəl maliyyə qurumlarının fəaliyyəti üçün əlverişli mühitin yaradılması;

- dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı investisiyaların təzminatı haqda sazişlərin imzalanması və s.

**5. Tədqiqat zamanı müasir iqtisadi riyazi üsulların - Vahid kök sınağı, Diki-Fuler, Filips-Peron, Ardal üsulundan istifadə olunaraq İranda qeyri-neft sektorunun inkişaf modeli işlənib hazırlanmışdır**.

Praktiki araşdırmalarda ənənəvi ekonomertik metodların istifadəsi dəyişənlərin etibarlı olma fərzi əsasındadır, ancaq bu sahədə aparılan araşdırmalar bir çox zamanlarda göstərir ki, bu fərz düzgün deyildi və bu dəyişənlər adətən etibarsızdır. Bu məsələ saxta reqresiyyanın yaranmasına səbəb ola bilər və təxmin olunan əmsallara qarşı etimadı məhv edə bilər. Beləliklə, modern ekonometriya qarşılıqlı inteqrasiya nəzəriyyəsi əsasında zaman seriyalarından istifadə zamanı elə metodlardan istifadə edilmdir ki, həm etibarlılıq və həm qarşılıqlı inteqrasiya məsələsinə diqqət yetirilsin.

Engel-Grencer metodunda hasil edilən təxminlər kiçik həcmli nümunələrdə dəyişənlər arasında qısa müddətli dinamik reaksiyaları nəzərdə tutmadığına görə qeyri-obyektivdir. Digər tərəfdən minimum kvadratların qiymət qoymasında həddin paylanması qeyri-normaldır, beləliklə fərziyyənin sınağı adi statistikadan istifadədə etibarsızdır. Həmçinin Engel –Grencer metodu qarşılıqlı bir əlaqəni göstərir. Bu vektorun olması fərzi üzərində qurulmuşdur

və elə bir şəraitdə ki, qarşılıqlı əlaqəni göstərən vektor bir ədəddən çox olsa bu metoddan istifadə yararsız olar. (Pesaran and Smith, 1998)

Bu problemi aradan qaldırmaq üçün, Johansen (1989), Juhansson –Jusilius (1) maksimum düz olma ehtimalı təxmini (2) metodunu qarşılıqlı sınaq və qarşılıqlı əlaqəni göstərən vektorların istehsalı üçün təklif etdilər. (Johansen an Juselius, 1989)

Juhanson –Jusilius qarşılıqlı metod modelində də bütün dəyişənlərin yararlılıq dərəcəsi eyni olmadığı ehtimala görə istifadəsi məqsədə uyğun deyildi. (Zaranezad and Saadatmehr, 2007). Bu məqalədə dəyişənlər cəmi dərəcəli fərqli olduğundan fəsiləli paylanma vasitəsilə özünü izah edən metoddan (ARDL) (3) istifadə edil-mişdir. ARDL metodunda hər bir dəyişənlər üçün Şvartz-Bizyen, Akanik və Hənan-Kuin meyarların-dan faydalanaraq əlverişli fasilələr (optimal) seçilir. (Pahlavani and Dahmardeh, 2007)

Bu metod eyni zamanda modelin üsul dəyişən və digər izah edilən dəyişən-lər arasında olan uzun və qısa müddətli əlaqələri təxmin edir. Bu metodda Engel-Grencer metodunda zəruri olan dəyişmələrin qarşılıqlı dərəcələrinin eyni olmasına ehtiyac yoxdur. ARDL-in metodologiyası dəyişənlər I (1) və I(0) dəyişənlərin tərkibi olduğu formada yenə tətbiq edilə bilər.

Ümumiyyətlə bir dinamik modeldə (1) rabitədəki (düstür) kimi dəyişənlər fasilələri daxil olur (1).

$$Y_t = aX_t + bX_{t-1} + cY_{t-1} + u_t$$

Kiçik nümunələrdə modelin əmsallarının təxmininə aid qeyri-obyektivliyi azaltmaq üçün imkan daxilində elə bir modeldən istifadə edilməlidir ki, dəyişənlərdə çoxlu sayında fasilələr (1) rabitəsi kimi nəzərə alınsın (2).

$$\phi(L,P)Y_t = \sum_{i=1}^{k} b_i(L,q_i)X_{it} + c'w_t + u_t$$

Yuxarıdakı düsturda $Y_t$ asılı dəyişən, $X_{it}$ müstəqil dəyişəndir, L fasilə operatoru, $W_t$ Sx1 vektorudur ki, məbdənin eninə məsafədə, məcazi dəyişənlər, zaman prosesi əvvəldən təyin edilmiş dəyişənləri göstərir. P asılı dəyişənlərdə işlənmiş fasilələrin sayı və ($X_{it}$) müstəqil dəyişənlərdə istifadə edilmiş fasilələrin sayıdır.

Bu model (ARDL) paylanma fasilələrinə malik özünü izah edən modeldir ki, burada (3;4):

$$\phi(L,P) = 1 - \phi_1 L - \phi_2 L^2 - .... - \phi_p L^p$$

$$b_i(L,q_i) = b_{i0} + b_{i1}L + .... + b_{iq}L^q \quad i=1, 2,......., K$$

Hər bir izah edilən dəyişən üçün əlverişli fasilələrin sayını Akanik (AIC), Şvartz-Bizyen (5) (SBC), Hənan-Kuin (6) (HQC) qaydalarının və ya xud təkra düzəliş edilmiş əmsalı ilə təyin etmək olar. Adətən 100-dən az nümunələrdə sərbəstlik dərəcəsin çoxu məhv olmasın Şvartz-Bizyen meyarından istifadə edilir. Bu meyar fasiləlrin təyin edilməsinə qənaət edir və nəticədə daha çox sərbəstlik dərəcəsinin təxmin edilməsinə malik olacaq.

Bu mərhələdə bu modeldən hasil olan uzunmüddətli rabitənin səhv olub - olmamasını yoxlamaq üçün iki yol mövcuddur: I metodda ARDL dinamik modelinin təxmin edilməsindən sonra aşağıdakı fərz yoxlanılır (5):

$$H_0 : \sum_{i=1}^{p} \phi_i - 1 \geq 0$$

$$H_a : \sum_{i=1}^{p} \phi_i - 1 \prec 0$$

Modelin analizi, dinamik, uzun müddət və xəta düzəltmə tənliyinin açıqlaması əsasındadır. Dinamik tənliyin qiymətləndirilməsinin nəticələri aşağıdakı cədvəldə cəmlənir.

Cədvəl 2 - modeldə dəyişənlərin qısamüddətli əmsalları

| Dəyişən | Əmsal | T- nisbəti |
|---|---|---|
| LVAI(-1) | 0.35802 | 3,9047 |
| LK | 0.42024 | 6,5228 |
| LHUMCAP | 0.33219 | 2,4664 |
| LOILEXPO | -0.07111 | -2,9632 |
| LTARIFF | -0.07298 | -2,5743 |
| LM1 | -0.00173 | -0,0403 |
| LM2 | -0.12538 | -1,5405 |
| LM2(-1) | 0.23061 | 2,7369 |
| LEXPORT | - | - |
| LDR | - | - |
| DUM | -0.05334 | -2,1717 |
| R2 | 0.99 | - |
| F-statistikası | 1066,00 | - |
| D.W statistikası | 46784,00 | - |

•Autoregressive Distributed Lag Estimates

**Mənbə:Müəllif tərəfindən hazırlanıb.**

Bu tədqiqatdan alınan ən önəmli nəticələr bunlardır:

- LVAI (-1)-ın dəyişən əmsalı yəni sənaye sektorunun əlavə dəyər logarifmi ARDL modelində qısa bir fasilə ilə cədvəl 2 əsasında 0.358 dir ki bu

əmsalın birdən kiçik olması (0.358<1) göstərir ki qıssa müddətli model uzun müdətli modelə çəkilir və deməк olur ki ARDLmodelində əmsallar obyektivdilər.

- Fiziki kapitalın loqarithmi əmsalı ARDL modelində (qıssa müddət) 0.420 dir ki t statistikası 6.522 olaraq LVAI-a əhəmiyyətli və müsbət təsiri var və göstərir ki qıssa müddətdə fiziki kapitalın həcmi istehsala yuxarı təsir edir. LK-nın Fiziki kapitalın loqarithmi əmsalı uzun müddət modeldə ARDL moeli əsasında 0.654 və statistika 11.323 dür. Ki LK-nın müsbət və əhəmiyyətli təsirin LVAI-a göstərir. Qıssa və uzun müddət nəticələri müqayisə edərək bu nəticə alınır ki bu dəyişənin təsiri və əhəmiyyəti uzun müddətdə qısa müddətə nisbətən güclüdür.

- İnsan kapitalının dəyişənlərinin əmsalı (LHUMCAP) ARDL modeli qısa müddət əsasında, 0.332-ilə bərabərdir və t-statistikası 2.466-ilə LVAI-a əhəmiyyətli və müsbət təsiri vardır. İnsan kapitalının əmsalı uzun müddətdə 0.517 və t- statistikası 2.762-ilə LHUMCAP –ın LVAI-a əhəmiyyətli və müsbət təsirin göstərir. Yəni Bu qısa və uzun müddətli insan kapitalı həcmində hər bir faiz artım, sənaye sektöründə əlavə dəyəri 0.332 faiz və 0.517 faiz artıracaqdır. İran iqtisadiyatında insan kapitalı əlavə dəyərə əhəmiyyətli və müsbət təsiri vardır ki, təsir ki uzunmüddətdə qısa müddətə görə çox güclüdür. Qısa müddətdə neft və qaz dəyərinin dəyişəni (milyon dollar) (LOILEXPO) ARDL modelində 0.071 əmsalı ilə və t-statistikası -2.963-ilə LVAI-a əhəmmiyətli və müsbət təsiri vardır. Uzun müddətdə -0.110 əmsalı ilə və t-statistikası -3.453-ilə LVAI-a əhəmmiyətli təsiri vardır ki. Uzun müddətdə bu dəyişənin əhəmmiyətli və mənfi təsirin təsdiq edilir ki Hollanda xəstəliyin İran iqtisadiyyatında göstərir. Holland xəstəliyi, xüsusilə neft ixrac edən ölkələrdə, ümumi dir. Yekun olaraq, neft gəlirinin daxili pulunun artırılması ilə, əvəzlənən malların sektoru (sənaye və kənd təsərrüfatı) qatılaşdırılmış, əvəzlənməyən malların sektoru (xidmətlər və yaşayış) yayılır. Neft gəlirlərinin artması, istehlak mallarının girişi ilə və əvəzlənməyən sektorunun nisbi səmərəliliyinin artırılması ilə, Bu dövriyyədə sektor və zəifləməsi, əvəzlənən malların sektoru qarşısında iqtisadi artımı azaldır.

- Qısa müddətdə idxal tarifinin dəyişəni (LTARIFF) rial əsasında olub və ARDL modelində -0.072 əmsalı ilə və t-statistika -2.574 ilə LVAI-a əhəmiyyətli təsir göstərir. Uzun müddətdə (5)-inci cədvəl əsasında -0.13 əmsalı ilə və t-statistika -3.023 ilə LVAI-a əhəmiyyətli təsir göstərir. Uzun müddətdə bu dəyişənin mənfi və güclü əhəmiyyətli təsiri təsdiq olunur.

- Qısa müddətdə ARDL modelində yerli kredit özəl sektoruna (% ÜDM) (LM1), -0.001 əmsalı ilə və uzun müddətdə -0.002 əmsalı ilə LVAI-a

mənfi təsir göstərir. Bu dəyişənin təsiri qısa və uzun müddətdə əhəmiyyətli deyil. Inflyasiya tarazlıq dəyərləri və real çıxış bir-birindən çox az təsir alırlar.

- Likvidlik dəyişəni ARDL modelində qısa müddətdə -0.125 əmsalı ilə LVAI-a əhəmiyyətli təsir göstərmir və uzun müddətdə 0.163 əmsalı ilə və t-statistika 1.909 ilə LVAI-a mənfi və əhəmiyyətli təsir göstərir.
- İnqilab və müharibə illəri üçün virtual dəyişən (DUM) ARDL modelində -0.001 əmsalı ilə və uzun müddətdə qısa müddətdə -0.053 əmsalı ilə və t-statistikası -2.171 ilə və uzun müddətdə -0.083 əmsalı ilə və t-statistika -1.871 ilə sənaye sektoruna mənfi və əhəmiyyətli təsir göstərir. Belə ki, virtual dəyişən inqilab və müharibə illərinə (DUM) bir və digər illərdə sıfırla bərabərdir və bu göstərir ki, artım prosesində əlavə dəyərin artımı sənaye sektorunda inqilabın baş verdiyi üçün inqilabi və müharibə illərində olub.
- Qısamüddətli modeldə, önəmli qiymətləndirmək əmsalı, xəta düzəliş komponentinin əmsalı və statistikası yəni, esm (-1) dir niyəki dəyişənlər arasında tarazlıq əlaqələr bu komponentin əsasında açıqlanır. esm (-1)-ın əhəmmiyətli olması -7.001 statistikası ilə göstərir ki uzun müddət modelinin açıqlaması düzdür və bütün tarazlıq rabitələri asılı dəyişənə bağlıdır. Niyə ki, uzunmüddət rabitələr səbəbiyyət rabitəsini göstərmir və təkcə tarazlıq rabitələrin dəyişənlər arasnda göstərir amma esm (-1) komponentinin əhəmiyyəti göstərir ki bu açıqlama uzun müddətdə doğrudur.

**Ümumilikdə, tədqiqat zamanı əldə olunan nəticə və təklifləri aşağıdakı kimi ifadə etmək olar:**

**1.** Dünyanın neftlə zəngin ölkələrinin təcrübəsi göstərir ki, qeyri-neft sənaye sahələrinin inkişafı istiqamətində müvafiq tədbirlər reallaşdırmayan ölkələr, iqtisadi nəzəriyyədə "Holland xəstəliyi" kimi izah edilən, iqtisadiyyatın bir sahədən asılılığı problemi ilə üz-üzə qalırlar. Bu baxımdan da, neftlə zəngin olan, eləcə də iqtisadi inkişafı, əsasən neftdən asılı olan İran İslam Respublikasında da qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi qarşıda duran başlıca vəzifələrdən biri kimi qəbul edilməlidir;

**2.** İran qeyri-neft kimya sənayesinin, emal, aqrar-sənaye, dağ-mədən, toxuculuq, tikinti, turizm və s. sənaye sahələrinin inkişafı üçün zəngin potensiala malikdir. Bu potensial ehtiyatlardan tam və səmərəli istifadəyə nail olmaq üçün müvafiq qiymətləndirmələrin aparılması, ayrı-ayrı sahələr üzrə üstünlüklərin müəyyən edilməsi məqsədəuyğun olardı;

**3.** Ümumilikdə qeyri-neft sənaye sahələrinin inkişafına konkret yanaşma ilə yanaşı, həm də müəyyən bir komplekslilik olmalıdır. Məsələn, İranın istər regional inkişafı, istər kənd təsərrüfatının inkişafı, ölkədə ərzaq təminatının yaxşılaşdırılması, istərsə də bu sahədə mövcud imkanlardan daha səmərəli isti-

fadə edilməsi üçün kimya müəssisəsi - emal müəssisəsi - kəndli - emal müəssisəsi əlaqələrinin daha da yaxşılaşdırılması çox vacibdir. Bu əlaqələrin təkmilləşdirilməsi ilə, kənd təsərrüfatı sahəsində məhsuldarlığı artırmaq, emal həcmini yüksəltmək və s. mümkündür;

**4.** İranda qeyri-neft sənaye sahələrinin inkişafının sürətləndirilməsi bazar münasibətlərinin intensiv inkişafını tələb edir. Yalnız bazar münasibətlərinə uyğun təsərrüfat subyektləri yaratmaq və bazar iqtisadiyyatı tələblərindən irəli gələn struktur formalaşdırmaq ilə proqnozlaşdırılan inkişaf səviyyəsinə çatmaq olar;

**5.** İranda qeyri-neft sənaye sahələrini inkişaf etdirmək üçün biznes və investisiya mühitinin təkmilləşdirilməsi tələb olunur. Bu məqsədlə, İKT-dən istifadənin yaxşılaşdırılması, İKT avadanlıqları ilə sərbəst işləməyi bacaran kadrların yetişdirilməsi, investisiya cəlbediciliyinə mane olan amillərin aradan qaldırılması, ölkədə genişmiqyaslı innovasiya siyasətinin həyata keçirilməsi, elmi tədqiqat qurumları ilə sənaye müəssisələri arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi və s. zəruridir;

**6.** Qeyd edildiyi kimi, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində aparılan araşdırmalardan aydın olur ki, investisiya mühitinə təsir edən amillər çoxsaylı və müxtəlif miqyaslıdır. Buraya ölkə liderlərinin investorlar üçün əlverişli şərait yaratmaq sahəsində görüləcək işlər barədə bəyanatlarından tutmuş, müəyyən regionlarda, iqtisadi cəhətdən geridə qalmış rayonlarda tikintiyə, yenidənqurmaya və istehsalın modernləşməsinə, kapital qoyuluşlarının stimullaşdırılmasına qədər genişmiqyası tədbirlər kompleksi aiddir. Bütün bunlarla yanaşı, investisiyaların əlverişli şərtlərlə cəlb edilməsi, investisiya cəlbediciliyinin yüksəldilməsi və maliyyə vəsaitlərindən daha səmərəli istifadəyə nail olunması məqsədilə bir sıra tədbirlərin görülməsi zəruridir:

**a)** idxalı əvəz edən məhsulların istehsalı üçün iqtisadi və institusional mühitin dəstəklənməsi ;

**b)** investisiyaların ölkənin əmək resurslarının bol olduğu regionlara yönəldilməsi;

**c)** ixrac potensialının genişləndirilməsi üçün tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi.

**d)** idarəetmə sisteminin islahı və qeyri-zəruri təşkilatların ləğvi (paralel təşkilat və nazirliklərin birləşdirilməsi)

**e)** dövlətin icra işlərində rolunu azaltmaq və yalnız yönəldici istiqamətdə rolunun gücləndirilməsi;

**f)** valyuta qiymətlərinin tarazlaşdırılması və milli pulun mübadiləsinin asanlaşdırılması;

**g)** ixrac və idxal qanunun islah edilməsi, ixracı təşviq etmək məqsədilə xarici ticarətə aid qaydaları asanlaşdırmaq;

**h)** iş bazarında lazım olan hərəkəti yaratmaq məqsədi ilə əmək məcəlləsi və vergilərdə islahatların aparılması, vergi və gömrük güzəştlərinin tətbiqi ilə investisiyaların təşviq edilməsi;

**i)** dövlət mülkiyyətində olan şirkətlərin özəlləşdirilməsi və səhmlərin satışı yolu ilə özəl təsərrüfat subyektlərinin inkişaf etdirilməsi;

**j)** bankların özəlləşdirilməsi və bank olmayan özəl maliyyə qurumlarının fəaliyyəti üçün əlverişli mühitin yaradılması;

**k)** investisiyaları təşviq etmək məqsədi ilə azad iqtisadi zonaların və ya sərbəst ticarət zonaların yaradılması və bu zonalarda səmərəli infrastruktur xidmətlərinin təşkili. Xüsusilə, sərhədyanı zonalarda ixrac edilməli məhsulların istehsalının artırılması məqsədilə, xüsusi iqtisadi zonaların yaradılması və onlara aid xüsusi qaydaların tətbiqi;

**l)** dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı investisiyaların təzminatı haqda sazişlərin imzalanması

**7.** Qeyri-neft sənaye sektorunun inkişafı üçün iri həcmli investisiyaların cəlb edilməsi çox vacibdir. Araşdırmalar göstərir ki, bir sıra ölkələr (məs. İrlandiya və s.) öz biznes mühitini dəyişdərərək aşağıdakı şərtləri təklif edir ki, bu da investisiya cəlbediciliyini yüksəldir:

**a)** regionda (məsələn, Qafqazda, Avropada) ən aşağı gəlir vergisi dərəcəsinin tətbiqi;

**b)** hökumətin lazımsız müdaxilələrdən imtinası, əsasən rəqabətə və tənzimləmənin ləğvinə istiqamətlənmiş siyasət;

**c)** infrastruktur, o cümlədən dünyanın bütün ərazilərinə girişi təmin edən güclü beynəlxalq aeroport sistemi, həmçinin yaxşı universitetlər və texnoloji baza;

**d)** hökumət, həmkarlar və sənaye sahələri arasında güclü əməkdaşlıq və tərəfdaşlıq;

**e)** inkişafa böyük maraq göstərilməsi və ən uğurlu şirkətləri ölkəyə cəlb etmək üçün stimullaşdırıcı tədbirlərin görülməsi.

**8.** İranda neft və qeyri-neft sektorlarının mövcud vəziyyətinin ekonometrik təhlilindən aydın olur ki, iqtisadiyyatın neft sektorunundan asılılığı artdıqca, ümumi səmərəlilik mənfiyə doğru istiqamətlənir. Bu da ondan irəli gəlir ki, dayanıqlı səmərəlilik, yalnız tarazlı inkişaf şəraitində mümkündür. Bu baxımdan da, iqtisadi riyazi təhlillər əsasında qeyri-neft sənaye sahələrinin inkişaf modeli təklif edilmişdir ki, bu da, məhz ümumi səmərəliliyin təmin olunmasına kömək edə bilər.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. S.Ə.Əkbər "Qeyri-neft sənaye sahələrinin inkişafına dair beynəlxalq təcrübənin təhlili". AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2009, №3, səh.198-201;
2. S.Ə.Əkbər "İran İslam Respublikasının sosial-iqtisadi inkişafında qeyri-neft sənaye sahələrinin rolu (aqrar sənaye kompleksləri timsalında)". AMEA İqtisadiyyat İnstitutu, Xəbərlər, 2009, №2, səh. 243-246;
3. S.Ə.Əkbər "Iranda və Azərbaycanda qeyri-neft sənaye sahələrinin inkişaf səviyyəsinin müqayisəli təhlili". AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2009, №4, səh. 276-279;
4. S.Ə.Əkbər, Ə.Y.Nəsirov "Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində aqrar sahənin rolu". AMEA, İİ, "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması:təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri", 2010, səh.553-554;
5. S.Ə.Əkbər, H.Ə.Əhmədzadə "Sahibkarlığın inkişaf etdirilməsində İslam bankçılığının rolu (İran İslam Respublikası timsalında)". "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri" mövzusunda beynəlxalq konfransın materialları, 4-5 may 2011, AU, 144-146;
6. S.Ə.Əkbər "Modernləşmə və sənayenin qeyri-neft sektorunun texnoloji inkişafı." "Milli iqtisadiyyatın modernləşməsi: mövcud vəziyyət və gələcək perspektivlər", Bakı, AMEA İİ, 11.03.2011, səh.88-89;
7. S.Ə.Əkbər "Qeyri-neft sənaye sahələrinin inkişaf istiqamətləri". "İpək yolu" jurnalı, AU, 2010, №4, səh.34-38
8. С.А.Акбер, Г.А.Ахмедзаде «Проблемы инвестиционных вложений в отрасли ненефтяного сектора». Москва, "Проблемы экономики", 2010, №1, стр.157-161;
9. С.А.Акбер «Перспективы развития ненефтяного сектора в Иранской Исламской Республике». ТГУ, «Вектор Науки», серия «Экономика и управления», № 2(5), 2011, стр.31-35;

**Сабир Ахмед оглы Акбер**

## Проблемы развития ненефтяного сектора в Иранской Исламской Республике


### Резюме

Предоставленная диссертационная работа состоит из введения, трех глав, резюме и списка использованной литературы. В введении разъяснены актуальность исследования, уровень, объект и предмет изучения темы, теоретически-методологические основы исследования, научная новизна, а также теоретическое и практическое значение.

В первой главе диссертационной работы под названием «Теоретических и методологических основах развитие ненефтяного сектора» объяснил социально-экономического сущность и содержания ненефтяной сектор, была определена роли ненефтяного сектора в экономическом развитии Иранской Исламской Республике, а также анализировал и обобщил многочисленные теоретические подходы.

Исследования во второй главе под названием « Анализ и оценивание уровня развития ненефтяного сектора Иранской Исламской Республике». В этой главе, исследования соответствующие статистические, статистический сравнительный анализ ненефтяной промышленности, изучены международного опыта о развития ненефтяных отраслей, были сравнительный анализ и оценивание динамики развития ненефтяных отраслей Иранской Исламской Республике. Здесь, в то же время, рассмотренных и изучены результаты влияние Государственной программы на развитию не нефтяной сектор, и Исламская Республика Иран.

Третья глава исследования называется «Направление развитие ненефтяных промышленных отраслей в Иранской Исламской Республике». В этой главе исследовал пути улучшения делового и инвестиционного климата в Иране и предложил направление развития. В третьей главе рассмотрены моделирование развития ненефтяных промышленных отраслей и получение адекватных результатов.

Диссертационная работа охватывает довольно актуальные вопросы, автор приобрел результаты, обладающие теоретически-практическое значение. Одновременно, приобретенные результаты отражаются в 9-х научных сочинениях.

**Akbar Saber**

## Examining the non-oil industry development problems in the Islamic Republic of Iran

### Summary

The presented thesis includes introduction, three chapters, conclusion part, references and attachments. In introduction part, importance and necessity of the topic, expression of the problem and research objectives and also academic achievements are mentioned. Generally, the thesis is adjusted according to the standard criteria and the considered hypotheses are all proved.

In the first chapter of the thesis named as "Theoretical-metallurgy essentials for the non-oil industry development", socio-economic nature of non-oil sources are explained and the role and also impact of the non-oil industries in economic development are defined. Also different relevant theoretical approaches have been analyzed.

Second chapter of this study is named as "Analyzing the non-oil industry development of the Islamic Republic of Iran in the contemporary period". In this chapter statistical data, statistical indicators, international experiences and also the dynamics of the non-oil industry development of Islamic Republic of Iran have been examined. Also the programs performed in the case of Iran's non-oil industry development have been examined and the results have been mentioned.

Third chapter of this study is name as "Evaluating the process of the non-oil industry development in Iran". In this chapter some models about the non-oil industry development of Iran have been made and agreeable results have been gained on this. Also some solutions for improving the business environment, investment and so many effective factors for continuation of the industrial development's process have been presented. In this study recent problems about the non-oil industry development have been mentioned and the author has suggested the theoretical and practical solutions for the current problems. Entries and results of this study have been publicized in 9 scientific and indoor magazines.

Format: 60x84 16/1
Tiraj:100
AMEA-nın mətbəəsində çap olunub